Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

№ 212 (1340) 17 noyabr - 18 noyabr 2016-cı il

# MÜSTƏQİLLİYİMİZİN GÖZƏL NÜMUNƏSİDİR BU ŞƏHƏR...

*Dostlar sevinsin...*

**Ölkəmizin şimal-qərb sərhədini tamamlayan və iki xarici dövlətlə - Rusiya Federasiyası və Gürcüstanla həmsərhəd olan Balakən rayonu haqqında vaxtaşırı məqalələr dərc etmişik. Onun keçmişindən - bu günündən çoxlu söhbətlər açmışıq. Bir zamanlar çoxlarının tanımadığı, yolu düşmədiyi bu ucqar rayonun bir çox özəllikləri də elə ucqarlardaca, necə deyərlər, gözdən-könüldən uzaq düşərək sanki öz zamanını gözləyib. Balakən oğullarının Qarabağ döyüşlərində göstərdiyi igidliklər də bir ara diqqətdən kənar qalıb. Sonralar "Balakən qartalları" batalyonunun vətən uğrunda döyüşləri haqqında çoxlu xatirələr danışıldı, qazetlərdə məqalələr verildi, kitablar buraxıldı, şəhidlərin xatirəsi əziz tutuldu, adları əbədiləşdirildi...**

... Sonralar Balakən rayonu da çox dəyişdi, çox inkişaf etdi. Dövlətimizin qayğı və diqqəti sayəsində bu ucqar və strateji həssas rayonumuz o qədər inkişaf etdi ki, onu sevənlər, dostlar bu haqda həmişə qürurla danışdılar. Çox dərinə getmək istəmirəm, ancaq yazmasam da olmur - Balakənin böyük inkişafının və gözəlliyinin paxıllığını çəkənlər də az deyildi...

Budur, Balakən rayonu dövlətimizin, Prezidentimiz cənab İlham Əliyevin yüksək diqqət və qayğısı sayəsində yenə irəliyə doğrudur, hərtərəfli inkişaf yolundadır. Aylar, illər bir-birini uğurlu hadisələrlə əvəzləyir.

Bu səbəbdən Balakən camaatı hər zaman ölkə Prezindentinə minnətdar olduqlarını bildirirlər.

**"... İqtisadi müstəqillik bizim üçün böyük imkanlar açır. Biz iqtisadi müstəqilliyimizi düşünülmüş siyasətlə, aparılan islahatlarla, investisiya siyasətimizlə və regionların sosial-iqtisadi inkişafı Dövlət proqramlarının icrası ilə təmin etmişik".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***





*Balakən: inkişafın yeni mərhələsi*

Balakən rayonun bütün istiqamətlər üzrə inkişafı bu yaxınlarda 2016-cı ilin doqquz ayında sosial-iqtisadi inkişafın yekunlarına həsr edilmiş ümumrayon yığıncağında söylənilən çıxışlarda, görülən işlərin təhlillərində bir daha diqqətə çatdırılmışdır. Balakən Rayon İcra Hakimiyyətinin başçısı İslam Rzayev məruzə ilə çıxışında demişdir.

- Hesabatını verdiyimiz 2016-cı ilin doqquz ayında kənd təsərrüfatı məhsulları istehsalçılarına dövlət dəstəyinin göstərilməsi və bu sahədə müvafiq tədbirlərin həyata keçirilməsi insanların kənd təsərrüfatına marağını artırmış və eyni zamanda bu sahənin daha da inkişaf etdirilməsinə geniş şərait yaratmışdır. Ölkə başçısının "Bitkiçiliyin inkişafına dövlət dəstəyinin gücləndirilməsi ilə bağlı əlavə tədbirlər haqqında" 15 aprel 2015-ci il tarixli sərəncamına əsasən istehsalçılara verilən yardımların məbləği 50 manata, təkrar əkinlərə görə əlavə 50 manata, buğda və çəltik səpininə görə 90 manata çatdırılmış, 2016-cı ildə tütün əkininə görə 90 manat məbləğində yardım verilməsinə başlanılmış, mineral gübrələrə tətbiq olunan güzəştin miqdarı çoxaldılmışdır ki, bütün bunlar da məhsul istehsalının artırılmasına stimul vermişdir.

*Kənd təsərrüfatının mövcud potensialı gələcək uğurlardan xəbər verir*

Hesabat dövründə rayonun kənd təsərrüfatının mövcud potensialının üzə çıxarılması, əkin sahələrinin artırılması, əhalinin məşğulluğunun təmin edilməsi, torpaqlardan istifadənin səmərəliliyinin artırılması sahəsində əhəmiyyətli işlər görülmüş, RİHB-nin 2 fevral 2016-cı il tarixli sərəncamı ilə yaradılan qərargahın müntəzəm olaraq iclasları keçirilmişdir. Rayonun təbii və əmək ehtiyatlarından maksimum səmərəli istifadə olunması, sahibkarlığın inkişafı və yeni iş yerlərinin yaradılması sahəsində ciddi təhlillər aparılmış, dövlət, bələdiyyə və xüsusi mülkiyyətdə olan torpaq sahələrindən istifadənin vəziyyəti dərindən öyrənilmiş, əkin sahələrinin, eləcə də istehsalın artırılması ilə bağlı hədəf göstəriciləri müəyyən edilmişdir. Görülmüş işlərin nəticəsində cari ildə 15586 hektar sahə əkin altında olmuş, onun 1183.5 hektarında payızlıq taxıl, 12444.5 hektarında isə yazlıq bitkilər əkilmiş, əvvəlki ilə nisbətən əkin sahələri 10.5% artırılmışdır. Təsərrüfatlarda 7244.5 ha sahədə qarğıdalı, 2046 ha sahədə tərəvəz, 905 ha sahədə kartof, 313 ha sahədə bostan, 379 ha sahədə lobya, 501 ha sahədə tütün, 1056 ha sahədə yonca əkilmişdir. Yoncadan başqa bütün digər bitkilərin əkinində artım müşahidə olunmuş, hətta taxıl əkini 2.5 dəfə artırılmışdır. Taxılın məhsuldarlıq göstəricisi 2015-ci ilə nisbətən 5 sentner artaraq 29,7 sentnerə çatmışdır. Bu son illərdə taxılda ən yüksək məhsuldarlıq göstəricisidir. Qeyd olunmalıdır ki, qarğıdalı əkini və məhsul istehsalı sahəsində Balakən rayonu respublikada 1-ci yerdə qalmaqdadır. Rayonun qarğıdalıçılıq üzrə ixtisaslaşması, bu sahənin inkişaf etdirilməsinə mövcud təbii iqlim şəraitinin imkan verməsi insanlar tərəfindən dəyərləndirilir və bu sahəyə maraq ildən-ilə artmaqdadır. Carı ilin əlverişli keçən iqlim şəraiti bol qarğıdalı istehsal etməyə imkan vermişdir. İndiyədək sahələrdən 35 min ton qarğıdalı yığılmışdır...

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ